asan xidmət

Dövlət xidmətlərində inqilab və vətəndaş məmnuniyyətinin simvolu

Prezident İlham Əliyevin Sərəncamına əsasən, hər il 29 dekabr ölkəmizdə "ASAN xidmət" işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

"ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır.

(davamı 5-ci səhifədə)

Dövlət xidmətlərində inqilab və vətəndaş məmnuniyyətinin simvolu

(əvvəli 1-ci səhifədə)

Qurum dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur.

"ASAN xidmət" mərkəzləri Azərbaycanda dövlət xidmətlərinin təqdimatında inqilabi bir yanaşma yaradıb. Bu mərkəzlər vətəndaşlara göstərilən xidmətləri bir araya toplayaraq, onları sürətli, şəffaf və səmərəli şəkildə təqdim etməyi hədəfləyir. Burada əsas məqsəd təkcə xidmətləri asanlaşdırmaq deyil, həm də vətəndaşlarla dövlət qulluqçuları arasındakı münasibətləri tamamilə yeni müstəviyə qaldırmaqdır. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulub. "ASAN xidmət" mərkəzlərinin yaradılmasında məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasıdır.

2015-ci il "ASAN xidmət" üçün tarixi bir il oldu - onun uğur səsi artıq beynəlxalq səviyyəyə çatıb. Birləşmiş Millətlər Təşkilatı tərəfindən Dövlət Xidmətləri üzrə ən yüksək mükafata layiq görülən "ASAN" dünya miqyasında birinci oldu. Bu, Azərbaycanın innovativ idarəetmə modelinin və vətəndaş məmnuniyyətinə əsaslanan yanaşmasının böyük beynəlxalq tanınması idi.

Qeyd edək ki, "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 400-ə yaxın xidmət göstərilir. Ölkə ərazisində 27 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, Salyan, Naxçıvanda və Lənkərandadır. Həmçinin işğaldan azad edilmiş ərazilərdə də mərkəz öz fəaliyyətini davam etdirəcək. İlk olaraq Şuşa, daha sonra gələcək illərdə də Ağdam, Cəbrayıl və Laçın şəhərlərində də regional "ASAN xidmət" mərkəzləri fəaliyyət göstərəcək.

Bu il noyabrın 26-da Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Töhfə Sazişi imzalanıb. Saziş çərçivəsində BMT-yə üzv ölkələrdə "ASAN xidmət" modeli əsasında dövlət xidmətlərinin göstərilməsi üçün innovasiyaların tətbiqi və müvafiq sahə üzrə potensialın inkişafı nəzərdə tutulur. Bununla da BMT Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasını ən yaxşı model kimi dəyərləndirir və təşkilata üzv dövlətlərə təşviq edir.

Qlobal sferada "ASAN xidmət" modelini öyrənmək və tətbiq etmək üçün bir çox ölkələrin nümayəndələri Azərbaycana səfər edirlər. Məsələn, 2024-cü ildə Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfər çərçivəsində "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Ruanda İnkişaf Şurasının Baş icraçı direktorunun müavini Culiana Muqanzanın da rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanın "ASAN xidmət" modelinin Ruandada tətbiqi ilə bağlı konsepsiya ilə yaxından tanış olublar. Keniya Respublikasının dövlət xidmətləri və insan kapitalının inkişafı naziri Justin Bedan Njoka Muturi "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə yaxından maraqlanıb. Rumıniyada "ASAN xidmət" təcrübəsini öyrənənlərin sırasındadır. Rumıniya Hökumətinin Baş Katibliyinin nümayəndə heyəti "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti və burada tətbiq olunan innovativ həllərlə yaxından tanış olmaq məqsədilə ölkəmizə səfər edib.

"ASAN xidmət" həm də zamanın tələbinə uyğun innovativ yanaşmalarla diqqət mərkəzindədir. Belə ki, 2 noyabr 2024-cü il tarixində "ASAN xidmət" mərkəzlərində alternativ enerji mənbələrinə keçid" layihəsi ilə bağlı təqdimat mərasimi keçirilib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan edilmiş 2024-cü il - "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində reallaşdırılan təşəbbüslər ekoloji davamlılıq və "yaşıl texnologiya"ların xüsusi önəmi nəzərə alınmaqla reallaşdırılır. Həmçinin Azərbaycan, 2030-cu il Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlərin 5-ci prioriteti olan "Təmiz ətraf mühit və yaşıl artım" hədəfinə də xüsusi önəm verilir. Eyni zamanda "ASAN xidmət" tərəfindən də ölkəmizdə dayanıqlı və "yaşıl gələcəy"in təmin edilməsi istiqamətində innovativ ekoloji təşəbbüslər həyata keçirilir. "ASAN xidmət" mərkəzlərində ümumilikdə 19 milyon kilovatsaat elektrik enerjisi istehlak edilir. Bu fakt enerji tələbatını dayanıqlı şəkildə qarşılamaq üçün innovativ həllərin tətbiqini zəruri edir. Digər tərəfdən bu il "ASAN xidmət"in nümayəndə heyəti "TEKNOFEST"də də ölkəmizi təmsil ediblər. Festivalda Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "Bilim Bakı" mərkəzi də stendi ilə çıxış edib.

Xüsusi qeyd edək ki, "ASAN xidmət"də könüllülük prosesi olduqca yaxşı inkişaf etmişdir. Belə ki, 2024-cü ildə ASAN könüllülərinin sayı 40 mini ötüb. Bununla da, gənclərin "ASAN xidmət" kimi mötəbər bir sistemdə iş fəaliyyətini icra etməsi təmin olunub.

Musa BAĞIRLI,
"Respublika".

Respublika .- 2024.- 29 dekabr (№ 289).- S.1;5.